# E L A N

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Riyaziyyat və Mexanika İnstitutu

fəlsəfə doktoru,elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya aşağıda göstərilən ixtisaslar üzrə qəbul elan edir:

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru | | Elmlər doktoru |
|---|---|---|---|---|
| | | Doktorantura əyani | Dissertantura | Dissertantura |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 |
| 1211.01 | Diferensial tənliklər | 1 | 1 | |
| 1212.01 | Riyazi fizika tənlikləri | 1 | | |
| 1214.01 | Dinamik sistemlər və optimal idarəetmə | 1 | | |
| 2003.01 | Maye, qaz və plazma mex-sı | 1 | | |

Xarici dil üzrə doktoranturaya və dissertanturaya qəbul imtahanı Azərbaycan Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir.

“Xarici dil” imtahanının 09.06.2024-cü il tarixində keçirilməsi nəzərdə tutulmuşdur.

Xarici dil imtahanını müvəffəqiyyətlə vermiş şəxslərin Fəlsəfə fənni üzrə imtahanı - 2, 3, 4 sentyabr 2024-cü il tarixlərində, ixtisas fənni üzrə imtahanının keçirilməsi -9, 10, 11 sentyabr 2024-cü il tarixlərində nəzərdə tutulmuşdur.

Fəlsəfə fənnindən imtahanın keçirilməsi üçün bölgü və qəbulun nəticələrinin qeyd olunması üçün cədvəllər təqdim olunacaq.

Əlavə olaraq bildiririk ki, doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMiS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali va orta ixtisas təhsil müəssisələrinə təhsil alan qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Elmi müəssisə üzrə təyin edilmiş məsul şəxs və doktorantura şöbəsinin əməkdaşı tərəfindən qeydiyyatdan keçən vətəndaşların sənədləri yoxlanılıb təsdiq ediləcək.

Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi cari il 16 aprel tarixindən başlayacaq və 15 may sənəd qəbulu üçün son tarixdir.

**Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

– ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın
rəhbərinin adına);

– kadrların şəxsi-qeydiyyat vərəqi (3×4 sm ölçüdə 4 ədəd fotoşəkil ilə birlikdə);

– tərcümeyi-hal;

– iş yerindən xasiyyətnamə;

– iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;

– çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;

– ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti ( xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);

– xarici dil bilikləri üzrə beynəlxalq sertifikat (əgər varsa);

– şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq məqsədilə dissertanturaya qəbul üşün aşağıdakı sənədlər AR ETN RMİ institutuna təqdim olunmalıdır:**

– ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın
rəhbərinin adına);

– kadrların şəxsi-qeydiyyat vərəqi (3×4 sm ölçüdə 4 ədəd fotoşəkil ilə birlikdə);

– tərcümeyi-hal;

– iş yerindən xasiyyətnamə;

– elmi işlər, ixtiralar və elmi-tədqiqat işləri üzrə hesabatların siyahısı; çap olunmuş elmi işləri və ixtiraları olmayan şəxslər seçdikləri ixtisas üzrə elmi məruzə(referat) təqdim edirlər;

– ali təhsil müəssisəsini bitirmək haqqında diplomun surəti və qiymət cədvəlindən çıxarış ;

– əmək kitabçasının sürəti;

– şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Elmlər doktoru elmi dərəcəsi almaq məqsədilə dissertanturaya qəbul üçün aşağıdakı sənədlər AR ETN RMİ-na təqdim olunmalıdır:**

– ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın
rəhbərinin adına);

– kadrların şəxsi-qeydiyyat vərəqi (3×4 sm ölçüdə 4 ədəd fotoşəkil ilə birlikdə);

– tərcümeyi-hal;

– iş yerindən xasiyyətnamə;

– çap olunmuş elmi əsərlərin siyahısı ( elmlər doktoru hazırlığı üzrə );
– fəlsəfə doktoru ( elmlər namizədi ) diplomunun müvafiq qaydada təstiq edilmiş surəti;
– ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təstiq
edilmiş surəti;
– əmək kitabçasının sürəti;
– şəxsiyyəti təsdiq edən sənədin surəti.